TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____ E.M.Ağayev

"27" yanvar 2025-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

DAMOTU TİNKTURASI
LEONURI TINCTURA

Tərkibi
Təsiredici maddə: 1 flakonda 25 ml damotu tinkturası (*tinctura herbae Leonuri*) (1:5) (ekstragent: 70%-li etanol) vardır.

Təsviri
Yaşılımtıl-qonur rəngli, zəif ətir qoxulu mayedir. Saxlanma dövründə çöküntünün yaranması mümkündür.

Farmakoterapevtik qrupu
Yuxugətirici və sedativ vasitələr.
ATC kodu: N05CM.

Farmakoloji xüsusiyyətləri
Farmakodinamikası
Təsir xarakterinə görə damotu tinkturası pişikotu preparatlarına bənzəyir. Sakitləşdirici effekti tormozlanma prosesinin güclənməsinə və ya mərkəzi sinir sistemində oyanma proseslərinin zəifləməsi hesabına baş verir. Yuxugətirici təsir göstərmir, lakin fizioloji yuxunun gəlməsini yüngülləşdirir və onu dərinləşdirir. Adətolmaya, psixi asılılığa səbəb olmur.
Farmakokinetikası
Öyrənilməmişdir.

İstifadəsinə göstərişlər
Ürək-damar sisteminin fəaliyyətinin funksional pozuntusu (hipertonik tip üzrə neyrosirkulyator distoniya), arterial hipertenziyanın ilkin mərhələsi, eləcə də yüksək emosional oyanıqlıq, qıcıqlanma, yuxunun pozulmasının yüngül formaları.

Əks göstərişlər
Preparatın istənilən komponentinə qarşı yüksək həssaslıq.
İfadə olunmuş arterial hipotenziya (arterial təzyiqin enməsi), bradikardiya.

Xüsusi göstərişlər və ehtiyat tədbirləri
Preparatın tərkibində etanol vardır. Preparatı uzun müddət istifadə etmək məsləhət görülmür.

Digər dərman vasitələri ilə qarşılıqlı təsiri
Damotu tinkturası sedativ, yuxugətirici, analgetik, antihipertenziv preparatların və ürək qlikozidlərinin effektini, eləcə də alkoqolun təsirini gücləndirə bilər.
İstənilən digər dərman vasitələrilə eyni vaxtda qəbulu zamanı həkimə məlumat vermək lazımdır.

Hamiləlik və laktasiya dövründə istifadəsi
Preparatın tərkibində etanol olduğu üçün tinkturanı qadınlarda hamiləlik və laktasiya dövründə istifadə etmək tövsiyə edilmir.

Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri
Damotu tinkturasının qəbulu zamanı nəqliyyat vasitəsini və potensial təhlükəli mexanizmləri idarə etməkdən çəkinmək lazımdır.

İstifadə qaydası və dozası
Damotu tinkturası yeməkdən sonra daxilə qəbul edilir.
Həkim digər müalicə sxemi təyin etmədikdə, böyüklərə gündə 3-4 dəfə 30-50- damcı stabil müalicəvi effekt əldə edilənə qədər istifadə etmək məsləhət görülür. 12 yaşdan yuxarı uşaqlara hər yaşa 1 damcı hesabı ilə sutkada 3-4 dəfə təyin edilir.
Müalicə kursu hər bir pasiyentə patoloji prosesin xarakterindən, ağırlıq dərəcəsindən, xəstəliyin gedişinin xüsusiyyətindən, preparata qarşı dözümlüyündən və əldə edilən müalicəvi effektin stabilliyindən asılı olaraq fərdi müəyyən edilir.
Uşaqlar
Preparatın tərkibində etanol olduğu üçün tinkturanın 12 yaşa qədər uşaqlarda istifadəsi məsləhət görülmür.

Əlavə təsirləri
Yüksək həssaslıq zamanı yerli allergik reaksiyaların (o cümlədən dərinin qızarması və ödem, səpgi, qaşınma), eləcə də başgicəllənmə, yuxululuq, yorğunluq hissi, əqli və fiziki iş qabiliyyətinin azalması mümkündür.

Doza həddinin aşılması
Məsləhət görülən doza həddi aşıldıqda, başgicəllənmə, yuxululuq, arterial təzyiqin enməsi müşahidə edilə bilər. Doza həddinin aşılması zaman preparatın qəbulunu dayandırmaq və dərhal simptomatik tədbirlər və dəstəkləyici terapiya (pasiyentin klinik vəziyyətinə uyğun olaraq) aparmaq lazımdır.
Preparata qarşı yüksək həssaslığın inkişafı mümkündür.

Buraxılış forması
25 ml məhlul, damcıladıcısı olan şüşə flakonda.

Saxlanma şəraiti
25°C-dən yüksək olmayan temperaturda, orijinal qablaşdırmada və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

Yararlılıq müddəti
4 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

Aptekdən buraxılma şərti
Reseptsiz buraxılır.

İstehsalçı/Qeydiyyat vəsiqəsinin sahibi
Ternopharm LTD, Ukraine.
4 Fabrychna Street, Ternopil, Ukraine.
Tel.:/Faks: +38 (0352) 521-444.
www.ternopharm.com.ua